**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№361/7** **14 dekabr 2023-cü il**

**“Qeyri-maliyyə hesabatlarının auditinin aparılmasına dair metodik vəsait” barədə**

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunundan, “Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası”ndan (2021-2030-cu illər) irəli gələn vəzifələrin, Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 1.2.2-ci “Qeyri-maliyyə hesabatlarının auditinin aparılmasına dair metodik göstərişin hazırlanması” bəndinin icrasını təmin etmək, habelə müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək məqsədilə sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış “Qeyri-maliyyə hesabatlarının auditinin aparılmasına dair metodik vəsait”in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Qeyri-maliyyə hesabatlarının auditinin aparılmasına dair metodik vəsait” bəyənilsin (əlavə olunur).
2. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, 2024-cü ilin I rübündə auditor təşkilatları və sərbəst auditorlar üçün “Qeyri-maliyyə hesabatlarının auditinin aparılmasına dair metodik vəsaiti”ə dair seminarın keçirilməsi təmin edilsin.
3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir həftə müddətində “Qeyri-maliyyə hesabatlarının auditinin aparılmasına dair metodik vəsaiti”in auditor təşkilatları və sərbəst auditorlara elektron qaydada göndərilməsi təmin edilsin.
4. Bu qərarın və “Qeyri-maliyyə hesabatlarının auditinin aparılmasına dair metodik vəsait”in mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**